# Azərbaycan dövləti müstəqil mətbuatın və azad sözün himayədarıdır

***Bu gün səsi dünyanın bütün tribunalarından eşidilən, regional əməkdaşlıq formatlarının yaradılması təşəbbüsü ilə çıxış edən, həmin formatlarda uğurlar qazanan, beynəlxalq problemlərin müzakirə edildiyi ünvana çevrilən, "ən islahatçı ölkələr" siyahısında yer alan, tolerantlığı və multikultural dəyərlərə verdiyi önəm bir çox ölkələrdə nümunə kimi qəbul edilən Azərbaycanın fəxr edə biləcəyi başqa bir məsələ də vardır. Belə ki, ölkəmiz nəinki postsovet məkanında, hətta bütün Avrasiyada söz və mətbuat azadlığına ən çox dəyər verən ölkələrdən biri kimi tanınır. Azərbaycan qəzet redaksiyalarının, elektron KİV-in problemlərinin, jurnalistlərin sosial-məişət qayğılarının həlli istiqamətində dünyanın heç bir ölkəsində olmayan nümunə formalaşdırmışdır.***

*Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Milli mətbuatımızın yaranmasının növbəti ildönümü münasibətilə hazırladığımız bu qeydləri qələmə alarkən ürəyimdən belə hisslər keçdi: "Ruhun şad olsun, Həsən bəy Zərdabi! Bizim üçün bu bayramın təməlini sən qoymusan. Qəbrin nurla dolsun, ulu öndər! Bu gün əlinə yenicə qələm almış gənc dostlarımızdan tutmuş, saçı-nı-saqqalını mətbuatda ağartmış qocaman jurnalistlərə qədər bütün həmkarlarımız yaxşı bilirlər ki, son əlli ildə mətbuata diqqət və qayğı ilə yanaşmağın, jurnalistlərin problemləri ilə maraqlanıb onlara kömək etməyin təməlini məhz ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Biz onunla da fəxr edirik ki, ümummilli liderimizin siyasi kursunun bütün istiqamətləri kimi, mətbuata qayğı, azad sözün qorunması məsələləri də bu gün dövlətimizin və dövlət başçımızın diqqət mərkəzindədir".

Hər il olduğu kimi, bu il də ölkəmizdə Mətbuat Günü xüsusi tədbirlərlə qeyd edilir. Çoxsaylı təbriklər eşidir, xoş məlumatlar alırıq. Azərbaycan mətbuatı bu təbriklərə də, həmin tədbirlərə də layiqdir. Mən isə hər gün evdən çıxıb işə gələndə Jurnalistlər şəhərciyində tikilən üçüncü binada gedən tamamlama işlərinə nəzər salır, "gələn yay daha 255 həmkarımız bizə qonşu olacaq"-- deyə Tanrıya şükürlər edirəm. Xatırladım ki, jurnalistlər üçün tikilmiş ikinci binadakı mənzillərin bölüşdürülməsi tədbirində nitq söyləyən dövlət başçımız milli mətbuatımıza, jurnalist təşkilatlarına, bu böyük ailənin irili-xırdalı bütün redaksiyalarına və hətta ən sadə fərdinə belə fərq qoymadan hamımızın əməyini yüksək qiymətləndirmiş və hər kəsin qarşısında mühüm vəzifələr dayandığını söyləmişdi.

Dövlət başçımızın həmin nitqində müasir Azərbaycan mətbuatının mükəmməl mənzərəsi göründü: "Müxtəlif siyasi baxışları, müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar. Əslində, Azərbaycan cəmiyyəti də bu istiqamətdə inkişaf edir. Azərbaycanda milli həmrəylik var. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşib. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq, əlbəttə, bu gün siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi var. Çünki Azərbaycanda çox gözəl, demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət aparaq həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib".

Təbii ki, hər il Milli Mətbuat Günü ərəfəsində hansısa qəzet materialını hazırlayarkən, Azərbaycan mətbuatının müstəqillik dövründə keçdiyi yola nəzər salırıq. Bu, bizim mənəvi borcumuzdur. Həmin yola nəzər saldıqda isə görürük ki, ümummilli liderin rəhbərliyi




altında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan 1993-cü ildən insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur.

Ekspertlər yazırlar ki, ulu öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük tarixi xidməti 1998-ci ildə KİV üzərində senzuranın tamamilə ləğvidir. Həmin dövrün qəzetlərindəki ağ zolaqları mən yaxşı xatırlayıram. Senzuranın mövcudluğu şəraitində medianın müstəqilliyindən danışmaq, əlbəttə ki, mümkün deyildi. Belə bir şəraitdə ulu öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixdə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman kütləvi informasiya vasitələrinin inkişafı, onların cəmiyyətin demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda mühüm addım olmuşdu.

Başqa bir fakta nəzər salaq. Ulu öndər Heydər Əliyev həmin illərdə maliyyə vəziyyəti ağır olan qəzetlərə maddi-texniki dəstəyin göstərilməsi təşəbbüsü ilə çıxış etmişdi. 90-cı illərin ortalarında qəzetlərə birdəfəlik yardımlar, subsidiyalar verilirdi. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli fərmanı "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün tədbirlər proqramı" jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsini, kütləvi informasiya vasitələrinin istehsalı və yayımı ilə əlaqədar problemlərin həlli məqsədilə əlaqələndirmə şurasının yaradılmasını önə çəkirdi.

Heydər Əliyevin bu sahədəki xidmətlərini yada salarkən, onun qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli "Kütləvi informasiya vasitələri haqqında", 19 iyun 1998-ci il tarixli "Məlumat azadlığı haqqında", 10 iyun 1997-ci il tarixli "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", 3 aprel 1998-ci il tarixli "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və digər qanunları sadalamamaq mümkün deyil. Həmin qanunlar mətbuatın azad və müstəqil fəaliyyətinin təmin edilməsi sahəsində yaxşı imkanlar açmışdı. Ulu öndərin humanist addımlarından biri də çoxlu sayda qəzetin "Azərbaycan" nəşriyyatına olan borclarının 2005-ci ilədək dondurulması oldu. Bu addım, faktiki olaraq, bir çox qəzetləri tamamilə qapanmaq təhlükəsindən xilas etdi.

Milli mətbuatımızın müstəqillik dövründə keçdiyi yolun ən əlamətdar hadisələrindən biri də mətbuatda özünütənzimləmə funksiyasını həyata keçirən Mətbuat Şurasının yaradılması idi. Dövlət bu işi mətbuat nümayəndələrinin öz öhdəsinə buraxmışdı. Beləliklə, 2003-cü ilin martında ölkə jurnalistlərinin birinci qurultayında Mətbuat Şurası təsis edildi.

Mətbuat təmsilçiləri yazırlar ki, milli mətbuatımızın son 16 ildə dinamik inkişaf yolu keçməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi xidmətləri ilə bağlıdır. Belə ki, Prezident İlham Əliyev respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin təmin edilməsinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə yönəlmiş bütün mütərəqqi təşəbbüsləri dəstəkləyir. Dövlətimizin rəhbəri milli mətbuatımızın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanmaqla və xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etdirilməsini vacib sayır.

Hamımızın gözünün qabağında olan faktlardır. Milli mətbuatın 130 və 135 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, 2005-ci ildə "Əməkdar jurnalist" fəxri adının bərpası, yüzlərlə jurnalistin yüksək fəxri adlara, təltiflərə layiq görülməsi, qəzetlərə birdəfəlik maliyyə yardımlarının edilməsi və digər mühüm tədbirlər ölkə rəhbərinin mətbuata qayğısını əyani şəkildə nümayiş etdirdi. Mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ölkə başçısının 2006-cı il fevralın 8-də imzaladığı "Qəzetlərin Azərbaycan nəşriyyatına olan borclarının ödənilməsi barədə" sərəncama əsasən, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan 450 min ABŞ dolları məbləğində borcu dövlət büdcəsi hesabına ödənildi. Xüsusi qeyd etmək lazımdır ki, borcları ödənilən qəzetlər sırasında müstəqil və müxalifyönlü qəzetlər çoxluq təşkil edirdi.

Bundan başqa, bilavasitə cənab Prezidentin təşəbbüsü ilə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu da mətbuata dövlət qayğısının mühüm tərkib hissələrindən biridir və ölkəmizin demokratik inkişafının mühüm tərkib hissəsinə çevrilib. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nın təsdiq edilməsi mətbuata dövlət qayğısının ardıcıl və sistemli şəkildə həyata


Əkinçisayağı Əkinçi, № 57, 27 aprel 2015-ci il

Fi 8 rəcəb Sənə 1436
Qəzetin qiyməti Bir sənəliyi - 3 manat
Altı aylıq 1 manat 50 qəpik
Poçt xərci
Qəzet basdıran ildir
Hər kəs öz işləri barəsində bu qəzetdə elannamələr basdıra bilər. Belə elannamələr basdıran kəslər lazımdır ki, elannamənin hər kəlməsinə iki qəpik versinlər.

Əkinçi

Hər kəs bu qəzetdə hər bir qisim əhvalat barəsində məktublar basdıra bilər və əgər bir şəxs bu günə məktubat həmişə göndərməyə xahiş etsə ol kəs üçün qəzet müftə göndərilir. Əgər bu məktubların məzmunu qəzetin əvvəlinci nömrəsinin daxiliyyəsində adlanan əhvalatlardan savayı əhvalat ola ya bu məktublarda dövləti-əliyyə və ya qeyri dövlətlərə ya məzhəbə ya bir insan adlanan şəxsə dəyən sözlər ola ol vaxta qəzetin münşisində ixtiyar var o məktubu çap etməsi, ya o nalayiq sözləri bərkənar edib sonra çap etsinlər.

Qəzet çap olunur Qafqaz vilayətinin Badkubə şəhərində. Hər kəs elannamələr və məktubat göndərmək xahiş etsə, qəzeti çap etdirənin adına göndərsin. Badkubə Slavyan Universtetinin Jurnalistika fakültəsinin tələbələrinin "Əkinçi" qəzetinin 140 iliyi münasibəti ilə xüsusi nəşri.

DAXİLİYYƏ

Ərz edərim ki, bu qəzeti Həsən bəy Zərdabi çap etdirib. Bunu çap etdirməyimizə səbəb "Əkinçi"nin

dır. Xamis, yuxarıda zikr olan xəbərlərdən savayı hər bir vilayətdə aşkar olan məşhur naxoşluq, ya

keçirilməsi istiqamətində mühüm addım oldu.

Həmin konsepsiyadan irəli gələn vəzifələrin gerçəkləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 aprel 2009-cu il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Fond öz fəaliyyəti dövründə həmin konsepsiyadan irəli gələrək mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlığı səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətlərinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələr həyata keçirir.

Bütün bunlar müasir Azərbaycan mətbuatının dövlət qayğısı və diqqəti ilə əhatələndiyini sübut edən çoxsaylı faktlardan bəziləridir. Həmin qayğı və diqqətin ən bariz nümunəsi isə dünyanın heç bir ölkəsində olmayan, bilavasitə Azərbaycan paytaxtında yaradılmış "Jurnalistlər şəhərciyi"dir. Bakıda belə bir şəhərcik var və mən fəxr edirəm ki, həmin şəhərciyin ilk sakinlərindənəm.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti",***
***Əməkdar jurnalist***